

*Şahvələd ƏLİYEV*

# DOSTLAR

*(Əvvəli ötən saylarımızda)*

Satıcı yazıq görkəmdə olan bu adamın həqiqətən də Yerevandan gəldiyini ləhcəsindən hiss etdi və dedi:

- Vallah, dəqiq deyə bilmərəm, ancaq onu bilirəm ki, bu aptek bir həftə olar bağlıdır. Dünən də bir neçə adam məndən soruşanda, onun tanışlarından biri nə isə dükana almağa gəlmişdi, onlara dedi ki, Aşot Yerevandan gələn dostları ilə Antaliyaya istirahətə gedib.

-Doğrudan? Vay, vay, bu olmadı ki - təəccüblənən adam kimi özünü göstərən müstəntiq əlindəki bağlamanı satıcıya göstərərək dedi:

-Onda mənim bir çarəm qalır. O istirahətə gedibsə gec gələr. Mən gedib onun qohumlarına bu əmanəti çatdıraram. Səhər də Yerevana getməliyəm. Sizi də narahat etdiyimə görə üzr istəyirəm - deyib dükandan çıxdı. Arxadan satıcının “Nezaşto” sözünü eşitdi.

Müstəntiq əməkdaşlarının yanına gəlib, “haydı, tələsin, deyəsən, onların izinə düşmüşük, təcili Antaliyaya uçuruq...”.

Alik dostları ilə Antaliyada kefdədamaqda idi. Pul nə qədər desən var deyə, sağa-sola hara gəldi səpələyib xərcləyirdilər.

Aşot dostlarının milyonları olduğuna tam əmin olmuşdu. Çünki, Alikin Rostovdakı evində pulları öz gözləri ilə görmüşdü və harada gizlətdiklərini də dəqiq yadında saxlamışdı. O, dostlarından bir anlığa yayınaraq, damarından o rəzil erməni qanı axdığına görə, öz mənfur xislətini göstərərək qaş ilə göz arasında öz qanından olan qohumuna zəng edərək hərtəfəli onu başa salmışdı. Ona ünvanı deyib tapşırmışdı ki, həmin ünvana təcili gedib açarı filan yerdən götürüb mətbəxdə yerə basdırılmış pulları çıxarıb götürsün. Və maşının bardaçoğunda olan açarı götürüb maşını sürərək aradan çıxsın. “Sonra mən gələndə pulları yarı böləri, eşitdin!” - deyib rahat nəfəs almışdı.

Bəli, dostlar deyirdi, pul olan yerdə hər şeyə nail olmaq olar deyə, gözəl qızlarla yeyib-içib kef edirdilər. Onlar Antaliyada, dəniz sahilində ən bərk gedən, bahalı otellərdə restoranı bağlatdırıb qızlarla çalıb-oynayıb rəqs edirdilər. Çalğıçılara cürbəcür “zakaz”lar verir, “caz”, “brek”, “tvis”, nə bilim, daha nələr. Xarici, tanınmış müğənnilərin mahnılarını başa düşdü - düşmədi oxutdururdular və çalğıcıların başına pullar səpirdilər.

Elə ki, oynayıb-yorulduqdan sonra hamı oturdu və indi də qızların şəninə sağlıq deməkdən ötrü badələrə “rakı” süzdülər.

Alik badəni əlinə götürüb sağ qaşındakı çapığa görə gözünü bir-iki dəfə yumub açandan sonra sözə başladı:

-Əziz xanımlar, sizə həyatda can sağlığı arzulayıram, siz olmasaz, biz kişilər nəyə lazımıq. Öpürəm si... söz ağzında qaldı. Dörd nəfər içəri daxil oldu və onlar sorğusuz-sualsız masaya yaxınlaşıb Alikin, Aşotun, Əli və Vəlinin qolunu burub itələyə-itələyə bayıra çıxartdılar. Qızlar bu mənzərəyə, bu işə mat-məəttəl qalıb bir küncə qısılaraq qorxa-qorxa baxırdılar. Aşot bir-iki dəfə “Ara, ara, nə edirsiniz?” - deyəndə onun qolunu nə təhər burdularsa, səsini xırp kəsdi və onları maşına basıb apardılar...

Əliağanı dostları zəhərləməmişdən əvvəl şirkətdə kabinetində oturub işi ilə ələqədar məşğul idi. Katibə içəri girib Əlizamin adında bir şəxsin onun yanına gəlməyini bildirəndə Əliağa tez dedi:

- Onu qapıda niyə saxlamısan? Burax içəri.

O içəri girəndə Əliağa ayağa qalxıb onu sevinclə qarşıladı.

-Ooo, Əlizamin müəllim, xoş gəlib, səfa gətirmisən. sən hara, bura hara? Yol azmısan, nədi, buyur keç içəri, keç otur mənim yanımda. Nə əcəb səndən, ay Əlizamin müəllim, gəlib bizi yad edirsən - deyə onunla iki əllə görüşdü və onu yanında otuzdurdu. Sözünə davam etdi:

-Vallah, bir ilahiyyatçı alim kimi, sənin televizorda çıxışlarını mütəmadi izləyirəm. İnsanların mənəviyyatını təmizləyən, onlara ruhi qida verən sözlərinlə, necə də insan rahatlaşır,



mənəviyyatı təzələnir. Onları haqq yoluna dəvət edirsən. Bundan xeyirxah iş dünyada nə ola bilər?

Mənim ürək dostlarım dünyasını dəyişəndə bərk sarsılmışdım. Bilavasitə, sənin Qurandan, Peyğəmbərimizin kəlamlarından gətirdiyin sitatlar məni bu sarsıntıdan xilas etdi. Mən səni kimi xeyirxah ilahiyyatçı möminlərlə fəxr edirəm və həmişə də fəxr edəcəm.Əlizamin müəllim onun bu sözlərinə görə öz minnətdarlığını bildirdi və üzünü ona tutaraq dedi:

-Çox sağ ol, Əlizamin müəllim, mən də sənə öz təşəkkürümü bildirirəm bu xoş sözlərinə görə. Sən heç də məndən geri qalmırsan. Sənin də xoş sədaların həmişə mənim qulağıma çatır və bir xeyriyyəçi insan kimi, iş adamı kimi həmişə kimsəsizlərə, çətin vəziyyətə düşənlərə əl uzadırsan, kömək edirsən. Səxavət ibadətdən irəlidir deyirlər. Sən öz səxavətinlə heç də ibadət edənlərdən geri qalmırsan. Mən də səni, Azərbaycanda tanınan xeyriyyəçi bir insan kimi, bir iş adamı kimi sevirəm və sənə çox böyük hörmətim vardır. Ona görə də səni özümə ən sadiq dost bilib yanına gəlmişəm.

-Çox sağ ol, Əlizamin müəllim, təşəkkür edirəm, mənə dediyin bu səmimi sözlərinə görə. İndi mənə de görüm mənə görə nə qulluq, nə əcəb bizə təşrif buyurmusan?

-Bilirsən, Əliağa müəllim neçə illərdir imkan tapa bilmirəm ki, öz evimi təmir edim. Ev-eşik pis gündədir. Evə qonaq gələndə bir evə baxir, bir mənə. Görürəm ki, təəccüblənirlər. Onların üzünə baxanda, ürəyini oxuyuram. Mənim barəmdə onlar ürəyində deyir, buna bax, tanınmış alim olasan, ona-buna ağıl öyrədəsən, onun yaşadığı evi gör nə gündədir, düzü utanıram. Gəldim ki, heç olmasa evin qapı-pəncərəsini sənə sifariş verim. Bu sözləri Əliağa müəllim ondan eşidəndə dedi:

-Heç narahat olma, Əlizamin müəllim, narahatçılığa bir əsas yoxdur. Sən ancaq, bizə öz ev ünvanını ver, qalan işlərlə işin olmasın.

Əliağa bir xeyriyyəçi insan kimi, öz vəsaiti hesabına onun evini tam təmir elətdirmişdi.

Əliağanın başına toplaşan qohum əqrəbası onu sakitləşdirə bilmirdi. “Kor tutduğunu buraxmadığı kimi” o da ürəyində olan sözü dilinə gətirib, otaqda var-gəl edərək, təkrarən deyirdi:

- Mənim bu dünyada yaşamağım artıqdır, mən niyə ölmədim-dirildim, mən yaşamalı yox, ölməli insanam, ölməli! - deyə az qalırdı ki, hönkürüb ağlasın. Qohum əqrabası da sakitcə dayanıb ona baxırdılar. Heç kəs cürət edib ona bir söz deyə bilmirdi. Bu vaxt, Əliağanın qızı qaçaraq atasına yaxınlaşdı.

-Ata, yanına gələn var. Əlizamin müəllimdi ata, sənin dostun!

-Kim? - Əlizamin müəllim?

Bu adı eşidəndə, Əliağanın gözləri işıqlandı, ruhunda canlanma yarandı. Elə bil ki, bayaq özünə ölüm arzulayan o, deyildi. Tez qapıya sarı qaçdı. Bütün qohumlar bu işə mat-məətəl qaldılar. Sanki, evdə birdən-birə möcüzə baş vermişdi. Hamının üzü gülməyə başladı. Sevincdən anasının və arvadının gözləri yaşardı. Hamı qapıya tərəf boylandı.

Əlizamin müəllim içəri girəndə, Əliağa onun boynuna sarıldı. Başına gələn hadisələr onun beynində canlandı və onu bu ruhi sarsıntıdan xilas edən bir xilaskarın gəldiyini hiss edərək onu bərk-bərk qucaqladı. Hər iki dostun hıçqırtısı eşidildi. Bu dostların ağlamağını hiss edən qohumlar bu səhnəni görəndə onlar da ağladı.

Əlizamin müəllim, dostunu sakitləşdirdi və gözünün yaşını silərək oturdu. Və o, danışmağa başladı: -Vallah mənim bu hadisədən xəbərim olmayıb. Mən İranda ezamiyyətdə idim, dünən gəlmişəm. Axşam televizorda bu baş verən hadisəni eşitdim. Bizim orqan işçilərinin səyi və bacarağı sayəsində çox gərgin axtarışlardan sonra, cinayətkarlar yaxalanaraq masuliyyətə cəlb ediliblər. Onların başçısı milliyyətcə erməni olan Aşotun öz cinayətkar dostlarından oğurladığı pullar da müsadirə edilib.

Azərbaycanda məşhur xeyriyyəçi və iş adamı olan Əliağa müəllimin hal-hazırda səhhəti yaxşıdır. Ona Allahdan cansağlığı arzulayırıq deyə aparıcı sözünü bu cümlələrlə tamamladı. Mən bu sözləri eşidəndən sonra, çox məyus olub, kədərləndim və tez özümü sənə çatdırdım. Bütün qohumlar Əlizaminin danışığına diqqətlə qulaq asır və üzünə sevinclə baxırdılar. O davam etdi: -Bilirsən qardaşım sən çox ruhi sarsıntılar keçirmisən, səhər tezdən gəldim ki, bir dost kimi sənə baş çəkim. Axı, sən həmişə mənim sözlərimə qulaq asmısan, mənə inanmısan. İnsan bu fani dünyada niyə yaşayır? -O dünyasını qazanmaqdan ötrü, eləmi! Bəs, onu insan necə əldə edə bilər?

Ancaq və ancaq öz əməlləri ilə. Sən öz əməlinlə bunu qazanmısan qardaş. Belə olan surətdə sən bu vəfasız dünyadan bundan artıq nə gözləyirsən?

Bu dünya fanidir və heçdir!

İmamımız Həzrəti Əli (ə) bu dünyanı “leşə” bənzədib. O, dünya haqqında buyurur:

“Dünya - şər və pisliyin əkinidir”.

Gör müqəddəs kitabımız Quranda Allahtaala dünya haqqında nə buyurur:

“Bilin ki, dünya həyatı oyun-oyuncaq, əyləncə, bər-bəzək bə sizlərin bir-birinə öyünməsidir”. (Hədid surəsi, ayə 20)

Belə olan surətdə bu dünyadan nə gözləmək olar?

Niyə sarsıntı içində üpürsən? - Sən artıq xeyirxah işlərinlə o dünyanı qazanmısan. Məgər səni ölümdən qurtaran o, (Allah) deyildimi? - Səni yenidən həyata qaytaran Rəbbin deyildimi? - Sənin başına gələn hadisələr gərdişində, sşn əyilmək yox, şax durmalisan. Çünki, səni bütün bu şər qüvvələrdən qoruyan Allahdır. Necə ki, Allahtaala bu haqda Quranda buyurur:

“Əgər sizə Allah yardım etsə sizə heç kəs qalib gələ bilməz. (Yox) əgər (o) sizi köməksiz qoysa ondan sonra sizə kim kömək edəcəkdir. Möminlər gərək yalnız Allaha təvəkkül etsinlər”. (Ali - imran surəsi, ayə 60)

Ona görə də, sənin həyatında başına gələn hadisələr, hər bir insanın başına gələ bilər. Bu baş verən hadisələr bütün insanlara örnək olmalıdır. Bir yaxın dost kimi, bir ilahiyyatçı alim kimi, mənim borcumdur səni bu sarsıntıdan, bu düşdüyün ağır vəziyyətdən çıxarım, kömək edim. Bə dediyim odur ki, müqəddəslərin haqq yolu ilə getməklərini bir daha sənə deyim və sənin yadına salım! Bilməlisən haqq yolu, nicat yolu ancaq onların getdiyi yoldur - Bu, Allah yoludur.

Bu mübəqqəti həyatda, bu nicat yolunda, haqq yolunda həmişə sənə uğurla addımlamağı ürəkdən arzulayıram. Sağlıqla yaşa əziz dostum öpürəm səni deyib Əliağanı bağrına basdı. Və o öz dostluq borcunu yerinə yetirdiyinə görə dərindən nəfəs alıb, rahatlaşdı.

***SON***